**Bağışlayan və**
**Mehriban Allahın adı ilə**

Astan Qüds Rəzəvi

Bütün Gürcüstan Müsəlmanları İdarəsi

# Namazı belə qılaq

**Kitabın adı:** Namazı belə qılaq
(namazın, qüslün və təyəmmümün hökmləri)

**Tərtib edən:** Emin Hacıyev

**Nazir:** Firəngiz Zeynali

**Tərtibat və dizayn:** Əmin Kövsəri

**Naşir:** Qüds Mədəniyyət Müəssisəsi

**Tbilisi** 2019

| | |
|---|---|
| 4 | Müqəddimə |
| 9 | Dəstəmazın alınma qaydası |
| 14 | Dəstəmazı pozan işlər |
| 15 | Namazın qılınma qaydası |
| 16 | Azan |
| 18 | İqamə |
| 19 | Sübh namazı |
| 21 | Fatihə surəsi |
| 28 | Zöhr namazı |
| 29 | Əsr namazı |
| 30 | Məğrib namazı |
| 31 | İşa namazı |
| 32 | Cənabət qüslu |
| 32 | Heyz qüslu |
| 34 | Təyəmmüm |

# Müqəddimə

بسم الله الرحمن الرحيم
عَنْ عَبْدِ السَّلَامِ الْهَرَوِيّ عَنِ الرِّضَا عليه السلام قَالَ: رَحِمَ اللهُ عَبْداً أَحْيَا أَمْرَنَا قُلْتُ كَيْفَ يُحْيِي أَمْرَكُمْ قَالَ يَتَعَلَّمُ عُلُومَنَا وَ يُعَلِّمُهَا النَّاسَ فَإِنَّ النَّاسَ لَوْ عَلِمُوا مَحَاسِنَ كَلَامِنَا لَاتَّبَعُونَا.
(عيون اخبار الرضا عليه السلام ، ج١، ص ٣٠٧)

Əbdussalam ibn Saleh Hərəvi belə deyir:

İmam Rzanın (ə) qulluğunda idim, onun belə buyurduğunu eşitdim: Allah Bizim əmrimizi (imaməti) dirçəldənə öz rəhmətini yağdırsın. Soruşdum ki, sizin əmriniz necə dirçəlir? İmam isə buyurdu: Bizim elmlərimizi öyrənib başqalarına öyrətməklə, çünki əgər insanlar kəlamlarımızın nə kimi gözəllikləri olduğunu bilsələr, bizə tabe olarlar.
(Uyun əxbar ər-Riza (ə) c. 1, səh. 307)

Allah-taalanın böyük nemətlərindən biri də məsum Rəhbərləri (ə) bizim aramızda qərar verməsidir. Bizə nü-

munə olaraq onların həyat tərzi, Allaha qarşı ibadətləri və öyüd-nəsihətləri bizi əbədi səadətə qovuşdurur. Məşhəd torpağı peyğəmbər övladının dəfn olunduğu, habelə cənnətin bir parçasıdır. Bu torpaqda imamət səmasının səkkizinci ulduzunun məzarı yerləşir. Hər il İmama məftun olan milyonlarla İranlı və xarici ziyarətçilər bu məkana axışaraq susuz ruhlarını Əhli-Beytin zülal maarifi ilə sirab edirlər.

Müqəddəs Rəzəvi Astanasının xidmətçilərinin hər biri İmam Rza (ə) zəvvarlarına ziyarətdən daha çox faydalana bilmələri məqsədilə onların rahatlıq və aramlığı üçün xidmət göstərməkdədirlər. "Müqəddəs Rəzəvi Astanasının Xarici Zəvvarlar İdarəsi"də öz növbəsində əlindən gələn bütün xidmətlərini İmam Rza (ə) ziyarətçilərinə göstərir, Əhli-Beytin (ə) xüsusən İmam Rzanın (ə) həyatındakı davranış və əxlaq mədəniyyətini bütün rzasevərlərə və şiələrə aşılayır. Müdiriyyətin göstərdiyi təşəbbüs xarici zəvvarların bəsirəti və mənəvi inkişafı artırmaq məqsədilə İran İslam Respublikasının Ali dini liderinin nəsihətləri, Astan Qüdsi Rəzəvinin rəhbərliyinin göstərişləri və habelə Astan Qüdsi Rəzəvinin

20 illik iş təcrübəsi İslam mədəniyyətinin yayılması üzərində qurulmuşdur.

İdarənin İmam Rza (ə) zəvvarlarına qarşı beynəlxalq sahədə göstərdiyi xidmət növləri aşağıdakılardan ibarətdir:

-Mədəni proqramların təşkil edilməsi;

-Maarifləndirici yığıncaqlar;

-Peşəkar görüşlərin baş tutması;

-Elmi konfrans və seminarların həyata keçirilməsi;

-Mədəni müsabiqələr;

-Şer gecələrinin təşkili;

-İslamı qəbul etmə mərasimi;

-Dini ekspertlərlə görüşlər;

-Göndərilən məktubların cavablandırılması;

-Kitab və bu kimi digər mədəni məhsulların xarici ölkələrə göndərilməsi;

-Dini məsələlərə dair sual-cavablar;

-İnternet şəbəkəsi olan "Rəzəvi talk"da dialoqların keçirilməsi;

-Müxtəlif dillərdə İslam maarifinə dair ədəbiyyatların yazılması və onların tərcümə edilməsi.

Bu gün İslamın çağırışı dünyanın hər bir guşəsinə çatıb. Bu çağırış özlərindən uzaq düşmüş insanları həqiqətə doğru yenidən qaytara bilər. Hazırda haqpərəst insanların qəlbləri İslama, onun təqdim etdiyi dəyərlər və insan tərbiyəsi metoduna üz tutub artmaqdadır. Bu kitabın həqiqət axtarışına olan kimsələrə faydalı olmasını, zəvvarların və Əhli-Beyt (ə) aşiqlərinin mərifət çırağını aydınlatmasını və Allah-taalanın razılığına səbəb olmasını ümid edirik.

اَللَّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ وَالِ مُحَمَّدٍ، وَ مَتِّعْنى بِهُدًى صالح لا اَسْتَبْدِلُ بِهِ، وَ طَريقَةِ حَقٍّ لا
اَزيغُ عَنْها، وَنِيَّةِ رُشْدٍ لااَشُكُّ فيها، وَ عَمِّرْنى ما كانَ عُمْرى بِذْلَةً فى طاعَتِكَ.

Allahım, Məhəmməd və onun Ailəsinə öz rəhmətini yağdır! Məni elə düzgün bir hidayətlə bəhrələndir ki, onu heç nə ilə dəyişməyim, məni elə haqq bir yola yönəlt ki, ondan azmayım, mənə elə bir inkişaf niyyəti nəsib elə ki, onda şəkk etməyim. Allahım, nə qədər ki, ömrüm sənin itaətində sərf olur, məni yaşat.

İslam əlaqələri və xarici zəvvarlar idarəsi

(Ya Rəsulum!) Quranda sənə vəhy olunanı oxu və (vaxtı-vaxtında) namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək (Allahın cəlalını və əzəmətini həmişə, hər yerdə yada salmaq), şübhəsiz ki, (savab etibarilə bütün başqa ibadətlərdən) daha böyükdür. Allah nə etdiklərinizi (bütün yaxşı və pis əməllərinizi) bilir! (Ənkəbut: 45)

Günahkarlar barəsində (və sonra həmin günahkarlara müraciət edib belə deyəcəklər): "Sizi Səqərə (Cəhənnəmə) salan nədir?" Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik; (Muddəssir: 41, 42 və 43)

Hər bir müsəlmana gündə beş dəfə Rəbbinə namaz qılmaq vacibdir. Qılmaq istədiyimiz namaz üçün ilk olaraq dəstəmaz almaq və bəzi hallarda isə qüsl almaq vacibdir. Şəriətə görə, su ilə dəstəmaz və ya qüsl ala bilməyən şəxs təyəmmüm etməlidir. Qüsl və təyəmmüm barədə kitabçanın sonunda ətraflı izah veriləcəyindən, gəlin, ilk olaraq dəstəmazdan başlayaq.


Şəkil: 1


Şəkil: 2

# Dəstəmazın alınma qaydası

Dəstəmaz alarkən, ilk olaraq niyyətimizi etməliyik, niyyət isə Allah rizası üçün olmalıdır. Bundan sonra üç bədən üzvü yuyulur və üç bədən üzvünə isə məsh çəkilir. Yuyulan üzvlərə gəlincə, bunlar üz və əllərdən ibarətdir.

### 1. Üzün yuyulması

Üzün yuyulan hissəsi alnın tük bitən yerindən çənənin axırına qədər (Şəkil: 1) və eni isə baş barmaqla orta barmağın əhatə etdiyi miqdar qədərdir. Üzün eninin tamamilə yuyulmasına əmin olmaq üçün üzü qulaqlara birləşən hissəyə qədər yumaq lazımdır. (Şəkil: 2)



Şəkil: 3



Şəkil: 4

### 2. Sağ əlin yuyulması

Əlləri yuyarkən, ilk olaraq sağ əldən başlamaq lazımdır. Belə ki, sol əllə suyu sağ əlin dirsəyindən tökərək barmaqların ucuna qədər yumalıyıq. Deyilən miqdarın yuyulmasına əmin olmaq üçün dirsəkdən iki barmaq yuxarıdan başlamaq kifayət edər. (Şəkil: 3)

### 3. Sol əlin yuyulması

Sol əli sağ əldə deyildiyi kimi dirsəyin yuxarı hissəsindən suyu tökərək barmaqların ucuna qədər yumaq lazımdır. (Şəkil: 4)

## Qeydlər:

a) Üz və əllər yuxarıdan aşağı istiqamətə doğru yuyulmalıdır.

b) Üzlə əllərin bir dəfə yuyulması vacib, ikinci dəfə yuyulmasına icazəli və üçüncü dəfə yuyulması isə haramdır.

c) Bir dəfə yumaq o zaman həyata keçir ki, su yuyulan üzvün bütün hissəsilərinə çatmış olsun, yəni suyun necə dəfə tökülməsi önəmli deyil. Məsələn, üz və əllərə bir dəfə, ya daha çox su tökəndən sonra su üzvün hər yerinə çatarsa, bu zaman həmin üzvün bir dəfə yuyulması həyata keçər.

d) Suyun dəstəmaz üzvlərinə çatmasında heç bir mane olmamalıdır. Məsələn, dəstəmaz üzvü yağlı olarsa və suyun həmin üzvə çatmasına maneçilik törədərsə, bu zaman ilk olaraq üzvün üzərindəki yağlılıq təmizlənməli, sonra isə dəstəmaz alınmalıdır.



Şəkil: 5



Şəkil: 6

Dəstəmazda məsh çəkilən üzvlər baş və iki ayaqdan ibarətdir.

### 1. Başa məshin çəkilməsi

Sol əli yuduqdan sonra, əldə qalan dəstəmaz suyu ilə -əgər qıraq su olarsa, bu zaman onunla məsh çəkə bilmərik- başın qabaq hissəsinin dördə birinə müəyyən qədər məsh çəkilərsə kifayət edər, amma uzunluğu bir barmaq qədər və eni isə üç barmağa kimi məsh çəkilərsə, daha yaxşı olar. (Şəkil: 5)

### 2. Sağ ayağa məshin çəkilməsi

Əlin içi ilə sağ ayağın barmaqlarının birinin başından başlayıb oynağa kimi məsh çəkmək lazımdır. Çəkdiyimiz məshin eni bir barmaq qədər olsa da, kifayət edər, amma daha yaxı olar ki, əlin içi ilə ayağın bütün üstünə məsh çəkilsin. (Şəkil: 6)

### 3. Sol ayağa məshin çəkilməsi

Sağ ayağa məshin çəkilməsində deyildiyi kimi sol ayağa da eyni qaydada məsh çəkilir.

## Qeydlər:

a) Saçı uzun olan şəxs (qadın ya kişi olmasından asılı olmayaraq) saçını ortadan ayırıb saçın dibinə məsh çəkməlidir. Uzun saç dedikdə, darayarkən saçın üzə tökülməsi nəzərdə tutulur.

b) Başa və ayaqlara məsh bir dəfə çəkilməlidir.

c) Məsh çəkərkən üzvlər sabit, hərəkətsiz qalmalıdır. Belə ki, əgər əli saxlayıb başı və ya ayağı ona çəksək, bu zaman dəstəmaz batil olar. Amma məsh edərkən üzvlər azacıq hərəkət edərsə, bu, dəstəmazı batil etməz.

d) Başa və sağ ayağa məsh sağ əllə, sol ayağa isə sol əllə çəkilməlidir.

d) Başa məsh çəkərkən diqqət edilməlidir ki, əlin suyu alnın suyuna qarışmasın. Odur ki, əlimiz alnımıza çatmamış məshi bitirməliyik.

## Dəstəmazı pozan işlər

Dəstəmazı pozan işlər aşağıdakılardan ibarətdir:

1. Sidik və ğait;
2. Mədə və bağırsaqdan çıxan yel;
3. Gözün görmədiyi, qulağında eşitmədiyi yuxu halı, amma gözün görməyib qulağın eşitdiyi yuxu halı dəstəmazı batil etməz;
4. Sərxoşluq, bihuşluq və s. kimi ağılı aradan aparan şeylər;
5. Qadınlarda heyz, istihazə və nifas;
6. Cənabət qüsluna səbəb olan işlər.

# Namazın qılınma qaydası

Hər bir müsəlmana gündə beş dəfə vacib olan namazlar aşağıdakılardan ibarətdir:

1. Sübh namazı;
2. Zöhr namazı;
3. Əsr namazdı;
4. Məğrib namazı;
5. İşa namazı.

Yuxarıda qeyd olunan hər bir namazın qılınma qaydasını sıra ilə göstərməzdən öncə, gəlin ilk olaraq azan və iqamənin deyilmə qaydası ilə tanış olaq.



# Azan

Dəstəmaz aldıqdan sonra, qılmaq istədiyimiz gündəlik vacib namaza başlamazdan əvvəl üzü qibləyə duraraq azan oxuyuruq. Azanın vacib hissələri ibarətdir:

Dörd dəfə: Əllahu əkbər;
İki dəfə: Əşhədu əlla ilahə illəllah;
İki dəfə: Əşhədu ənnə Muhəmmədən rəsulullah;
İki dəfə: Əşhədu ənnə Əliyyən vəliyyullah
İki dəfə: Həyyə ələs-səlah;
İki dəfə: Həyyə ələl-fələh;
İki dəfə: Həyyə əla xayril-əməl;
İki dəfə: Əllahu əkbər;
İki dəfə: La ilahə illəllah;

**Qeyd:** “Əşhədu ənnə Əliyyən vəliyyullah” ifadəsi azan və iqamənin vacib tərkib hissəsi hesab olunmur, amma yaxşı olar ki, “Əşhədu ənnə Muhəmmədən rəsulullah” cümləsini

dedikdən sonra qürbət qəsdi ilə bir və ya iki dəfə həmin ifadə həm azanda, həm də iqamədə deyilsin.

Azanın tərcüməsi:

Əllahu əkbər, yəni Allah vəsf edilməkdən daha böyükdür; Əşhədu əlla ilahə illəllah, yəni şəhadət verirəm ki, həqiqi məbud və pərəstişə layiq olan yalnız Allahdır;

Əşhədu ənnə Muhəmmədən rəsulullah, yəni şəhadət veirəm ki, Məhəmməd Allahın elçisidir;

Əşhədu ənnə Əliyyən vəliyyullah, yəni şəhadət verirəm ki, Əli Allahın vəlisidir;

Həyyə ələs-səlah, yəni namaza tələsin;

Həyyə ələl-fələh, yəni qurtuluşa tələsin;

Həyyə əla xayril-əməl, yəni işlərin ən xeyirlisi olan namaza tələsin;

La ilahə illəllah, yəni Allahdan başqa həqiqi məbud və pərəstişə layiq olan yoxdur.

# İqamə

İki dəfə: Əllahu əkbər;
İki dəfə: Əşhədu əlla ilahə illəllah;
İki dəfə: Əşhədu ənnə Muhəmmədən rəsulullah;
Iki ya bir dəfə: Əşhədu ənnə Əliyyən vəliyyullah;
İki dəfə: Həyyə ələs-səlah;
İki dəfə: Həyyə ələl-fələh;
İki dəfə: Həyyə əla xayril-əməl;
İki dəfə: Qəd qamətis-səlah;
İki dəfə: Əllahu əkbər;
Bir dəfə: La ilahə illəllah.
İqamənin tərcüməsi:

Qəd qamətis-səlah, yəni artıq namaz başladı. Yerdə qalan sözlərin mənası isə azanda olduğu kimidir.

# Sübh namazı

Sübh namazı iki rükət olaraq qılınır. Rükət- üç halın və ya hərəkətin baş verməsinə deyilir. Bu da qiyam (ayaq üstə durmaq), rüku (əlləri dizə qoyaraq belin əyilməsi) və iki səcdəyə şamil olur. Deməli, sübh namazı iki rükətdirsə, onda iki qiyam, iki rüku və dörd səcdə yerinə yetirilməlidir. İndi isə sübh namazının vacib olan hissələrini və qılınma qaydasını qeyd edək.

**1. Niyyət**

Sübh namazını qılmağa başlamaq istədikdə ilk olaraq niyyət etməyimiz vacibdir, yəni Allahın əmrini yerinə yetirmək məqsədilə iki rükət sübh namazını qılmağımızı niyyət etməliyik. Niyyəti dilə gətirmək vacib deyil. Bu əsasla, insan nə etmək istədiyini bilərsə, bu, kifayət edər.



Şəkil: 8

## 2. Qiyam

Qiyam ayaq üstdə durmağa deyilir. Niyyət etdikdən sonra üzü qibləyə tərəf dururuq. (Şəkil: 7)



Şəkil: 7

## 3. Təkbirətul-İhram

Niyyətdən sonra üzü qibləyə duran halda iki əllərimizi qulaqlarımızın müqabilinə qaldırıb "Əlla-hu əkbər" deyirik. Buna "Təkbirətul-İhram" deyilir, çünki bu təkbirdən sonra namaza daxil olunur və namaza aid olmayan işlər namaz qılan kəsə yasa-qlanır. (Şəkil: 8)

## 4. Qiraət

Təkbirətul-İhramdan sonra ayaq üstə duraraq "Fa-tihə" və "İxlas" surələrini oxumağa başlayırıq. Qeyd edək ki, namazda bu surələr ancaq ərəb dilində oxunmalıdır və başqa dildə oxunarsa, namaz batil olar.

# Fatihə surəsi

(1) Bismillahir-rəhmanir-rəhim,
(2) Əlhəmdu lillahi Rəbbil-Aləmin,
(3) Ər-Rəhmanir-Rəhim,
(4) Maliki yəvmid-din,
(5) İyyakə nə`budu və iyyakə nəstəin,
(6) İhdinəs-siratəl-mustəqim,
(7) Siratal-ləzinə ən-əmtə ələyhim, ğayril-məğzubi ələyhim vələz-zallin.

**Tərcüməsi:** 1. Mərhəmətli və Rəhmli Allahın adı ilə! 2. Həmd (şükür və tərif) olsun Allaha (və ya: Həmd məxsus-dur Allaha) – aləmlərin Rəbbinə, 3. (Bu dünyada hamıya) mərhəmətli, (axirətdə isə ancaq möminlərə) rəhmli olana, 4. Haqq-hesab (qiyamət) gününün sahibinə! 5. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! 6. Bizi doğru

(düz) yola yönəlt! 7. Nemət verdiyin kəslərin yoluna, qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!

**İxlas surəsi**
(1) Bismillahir-Rəhmanir-Rəhim
(2) Qul huvəllahu əhəd.
(3) Əllahus-saməd.
(4) Ləm yəlid vələm yuləd.
(5) Vələm yəkulləhu kufuvən əhəd.

**Tərcüməsi:** Mərhəmətli və Rəhmli Allahın adı ilə! 1. (Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur); 2. Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O, əzəlidir, əbədidir!) 3. O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!) 4. Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"

### 5. Rüku

Fatihə və İxlas surələrini oxuduqdan sonra "Əllahu əkbər" deyib rükuya gedirik. (Şəkil: 9)



Şəkil: 9

### 6. Zikr

Rüku halında üç dəfə "Subhanəllah", ya da bir dəfə "Subhanə rəbbiyəl-əzimi və bihəmdih" deyirik və yenidən ayağa qalxırıq. Qeyd edək ki, rükudan qalxarkən bədəni tamamilə düz hala gətirməliyik, yəni yarımçıq qalxmaq düzgün hesab olunmur.

**Tərcüməsi:** "Subhanəllah", yəni Allah hər bir eyib və nöqsandan pak və münəzzəhdir. "Subhanə rəbbiyəl-əzimi və bihəmdih", yəni mənim böyük Rəbbim hər bir eyib və nöqsandan pak və münəzzəhdir. Mən də Ona həmd-sitayiş etməklə məşğulam.



Şəkil: 10



Şəkil: 11

## 7. Səcdə

Rükudan ayağa qalxıb bədəni deyildiyi qaydada düzətdikdən sonra, “Əllahu Əkbər” deyib birinci səcdəyə getməliyik. Səcdəyə gedərkən alın, əllərin içi, dizlər və ayaqların baş barmağı yerə dəyməlidir. (Şəkil: 10) Və səcdə halında ya üç dəfə “Subhanəllah”, ya da bir dəfə “Subhanə rəbbiyəl-ə'la və bihəmdih” zikri deyilməlidir. Birinci səcdədən başımızı qaldırıb diz üstdə oturub (Şəkil: 11), “Əllahu Əkbər” deyərək ikinci səcdəyə (birinci səcdədə olduğu kimi) gedirik

və yenidən həmən zikirləri təkrarlayırıq. Zikirlər bitdikdən sonra yenidən dizi üstdə oturub "Əllahu Əkbər" deyirik. İkinci rükəti davam etmək üçün yenidən ayağa qalxıb birinci rükətdə etdiyimiz əməlləri təkrarlayırıq, yəni qiyam halında yenidən Fatihə və İxlas surələrini oxuyub "Əllahu Əkbər" deyərək rükuya gedirik. Bu zaman yenidən zikirləri deyib qiyam halına qayıdaraq deyilən şəkildə səcdəyə gedirik. İkinci səcdədən sonra dizüstdə oturan halda, təşəhhüd və ardıca da salamları deyəndən sonra üç dəfə "Əllahu Əkbər" deyib namazı bitiririk.

### 8. Təşəhhüdün deyilməsi

Əşhədu əlla ilahə illəllahu vəhdəhu la şərikə ləh. Və əşhədu ənnə Muhəmmədən əbduhu və Rəsuluh. Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd.

**Tərcüməsi:** Əşhədu əlla ilahə illəllahu, yəni şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud, pərəstişə layiq olan yoxdur, vəhdəhu la şərikə ləh, yəni təkdir, heç bir şəriki

yoxdur, Və əşhədu ənnə Muhəmmədən əbduhu və Rəsuluh, yəni və şəhadət verirəm ki, Muhəmməd Allahın qulu və rəsuludur, Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd, yəni Allahım, rəhmətini göndər Məhəmmədə və onun Əhli-beytinə.

### 9. Salamların deyilməsi

Əssəlamu ələykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh. Əssəlamu ələyna və əla ibadillahis-salihin. Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh.

Tərcüməsi: Əssəlamu ələykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh, yəni salam olsun Sənə ey Peyğəmbər! Allahın rəhmət və bərəkəti Sənə olsun! Əssəlamu ələyna və əla ibadillahis-salihin, yəni Allah tərəfindən salam olsun biz namaz qılanlara və bütün saleh bəndələrə! Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh, yəni Allahın salam, rəhmət və bərəkəti siz möminlərə olsun!

## Qeydlər:

a) İkinci rükətdə Fatihə və İxlas surələrini oxuduqdan sonra iki əlləri üzün müqabilində tutub bildiyimiz hər hansı bir duanı oxumaq bəyənilmiş əməl hesab olunur. (Şəkil: 12) Bu əmələ qunut (dua etmək) deyilir. Qunutda oxunan dualardan biri belədir: "Rəbbənə atina fid-dunya həsənətən və fil-axirəti həsənətən və qina əzəbən-nar".

Tərcüməsi: Ey Rəbbimiz! Bizə dünyada da, axirətdə də yaxşılıq və gözəllik ver. Bizi cəhənnəm əzabından qoru.

b) Səcdə, yəni alnın yerə qoyulması insanın yemədiyi və geyinmədiyi şeylərin üzərinə olmalıdır. Üzərinə səcdə etmək üçün ən yaxşı vasitə imam Hüseynin (ə) türbəti, sonra adi torpaq, daş və daha sonra isə insan qidası hesab olunmayan otlar və bitkilərdir.



Şəkil: 12

# Zöhr namazı

Zöhr namazı dörd rükət qılınır. Sübh namazında deyildiyi qaydada olduğu kimi Allahın əmrini həyata keçirmək məqsədilə dörd rükət zöhr namazını qılmağımızı niyyət edib qiyam halında Təkbirətul-İhram deyib Fatihə və İxlas surələrini oxuyuruq və daha sonra rüku və səcdələri yerinə yetiririk. Səcdələrdən sonra ayağa qalxıb, yenə həmən əməlləri ikinci rükət olaraq təkrarlayırıq və iki səcdələri yerinə yetirəndən sonra təşəhhüdü deyirik. Sübh namazından fərqli olaraq zöhr namazı dörd rükət olduğu üçün təşəhhüddən sonra salamları demədən ayağa qalxıb üçüncü rükəti davam edirik. Üçüncü rükətdə ancaq Fatihə surəsini oxuyub rüku və səcdələri yerinə yetiririk, səcdələrdən sonra isə axırıncı dördüncü rükətə qalxıb yenə ancaq Fatihə surəsini oxuyub rüku ilə səcdələri yerinə yetirərək təşəhhüd və salamları deyirik. Bununla da dörd rükət zöhr namazı bitmiş olur.

# Əsr namazı

Əsr namazı da eynilə zöhr namazı kimi qılınır, yeganə fərq isə namaz qılanın niyyətindədir. Əsr namazını qılan şəxs Allahın əmrini həyata keçirmək məqsədilə dörd rükət əsr namazın qılmasını niyyət etməlidir.

## Qeydlər:

a) Dörd və üç rükətli namazlarda üçüncü və dördüncü rükətlərdə ancaq Fatihə surəsi –İxlas surəsi oxunmaz- və ya Fatihə surəsinin əvəzinə üç dəfə "Təsbihatul-ərbəə" oxuna bilər.

**Təsbihatul-ərbəə:** Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vallahu əkbər.

Tərcüməsi: Allah hər eyib və nöqsandan pak və münəzzəh-dir, həmd yalnız Allaha məxsusdur, Allahdan başqa həqiqi məbud və pərəstişə layiq olan yoxdur, Allah vəsf edilməkdən daha böyükdür.

b) Namazların sonuncu rükətlərində salamlardan sonra üç dəfə "Əllahu əkbər" demək bəyənilmiş əməl hesab olunur.

## Məğrib namazı

Məğrib namazı üç rükət qılınır. Digər namazlarda olduğu kimi, Allahın əmrini həyata keçirmək məqsədilə üç rükət məğrib namazını qılmağımızı niyyət edib, qiyam halında Təkbirətul-İhram deyərək namaza başlayırıq. Birinci rükətdə sübh, zöhr və əsr namazlarında olduğu kimi Fatihə və İxlas surələrini oxuyub, rüku və iki səcdələri yerinə yetirib ikinci rükətə qalxaraq yenə həmən əməlləri təkrarlayıb səcdələrdən sonra təşəhhüdü deyirik və salamları demədən üçüncü rükətə qalxırıq. Üçüncü rükətdə deyildiyi kimi ya Fatihə, ya da üç dəfə Təsbihatul-ərbəəni oxuyub rüku və səcdələri edəndən sonra, təşəhhüdlə salamları deyib namazı bitiririk.

# İşa namazı

İşa namazı zöhr və əsr namazları kimi dörd rükət qılınır. Qılınma qaydası da eyni ilə zöhr və əsr namazında deyildiyi kimidir. Fərqi isə təkcə niyyətinə görədir.

## Qeydlər:

a) İslam şəriətinə görə, namazların bəziləri ucadan, bəziləri isə astadan qılınmalıdır. Ucadan qılınan namazlar sübh, məğrib və işa namazlarıdır. Astadan qılınanlarsa zöhr və əsr namazlarıdır. Burada ucadan dedikdə, səsin tembrinin, tonunun eşidilməsi nəzərdə tutulur. Astadan dedikdə isə səs tonunun aşkar olmaması və namazın pıçıltı ilə qılınması nəzərdə tutulur, amma pıçıltı elə olmalıdır ki, namaz qılan onu özü eşidə bilsin. Bu əsasla, namazın sözlərini ürəyində deyən kəsin namazı batildir.

b) Namazların astadan və ya ucadan qılınması ancaq kişilər barədə şərtdir. Qadınlar isə bütün namazlarını astadan qıl-

malıdırlar. Əgər qadın naməhrəm olmayan yerdə namaz qılarsa, bu zaman kişilər üçün şərt olan formada ucadan və ya astadan namaz qılmaları icazəlidir.

c) Namazın ucadan qılınma şərti ancaq sübh, məğrib və işa namazların birinci və ikinci rükətlərində Fatihə və ondan sonra oxunan surəyə şamildir. Ancaq üçüncü və dördüncü rükətlərdə Fatihə və ya Təsbihatul-ərbəə astadan oxunmalıdır.

d) Namazların təşəhhüd, salamlar və zikirlər kimi hissələri həm ucadan, həmdə astadan oxuna bilər.

## Cənabət qüslu

Qüslların növləri müxtəlif olsa da, namazın qılınması üçün vacib olan qüsl həm kişi, həm də qadın üçün keçərli olan cənabət qüslu, təkcə qadınlara keçərli olan heyz, istihazə və nifas qüsllarıdır. Biz burada ancaq cənabət və heyz qüslları barədə danışacağıq.

1. İki halda cənabət qüslu alınmalıdır: a) cinsi yaxınlıq edərkən, b) insandan istər yuxuda, istərsə də ayıqlıqda məni xaric olarkən. Cünub olan şəxs, yəni yuxarıdakı halda boynuna qüsl gələn şəxs namaz qılmaq üçün ilk olaraq qüsl almalı və daha sonra namaz qılmalıdır.

2. Cənabət qüslunu Allah rizası üçün alınmasını niyyət edib təmiz su ilə (sabun, şampun kimi yuyucularla qarışıq olmamalıdır) birinci başla boynu yuyub, sonra isə sağ və sol tərəfi yumalıyıq. Bədəni sinənin ortasından aşağı hissəyə qədər bölsək, onun bir tərəfi sağa, o biri tərəfi isə sola şamil olur. Əgər sağ tərəfi yuyarkən bir az sol tərəfə su keçərsə və yaxud əksinə, yəni sol tərəfi yuyarkən sağ tərəfin də bir miqdarı yuyularsa, bunun heç bir eybi yoxdur.

3. Cənabət qüslundan sonra dəstəmaz almaq olmaz və bu qüsulla namaz qılına bilər. Əvvəldə qeyd etdiyimiz dəstəmazı batil edən işlərdən biri cənabət qüslundan sonra baş verərsə, bu zaman namaz üçün dəstəmaz alınmalıdır.

4. Cənabət qüslunu yerinə yetirərkən üzü qibləyə durmaq və niyyəti dilə gətirmək şərt deyil.

# Heyz qüslu

Qadınlar heyz halında namaz qıla bilməzlər. Bu, şəriətə görə icazəli deyil. Qadınlar heyzdən qurtardıqdan sonra, namaz üçün heyz qüslunun niyyətini edib cənabət qüslunda deyildiyi qaydada qüsl almalıdır. Qeyd edək ki, heyz müddətində qılınmayan namazların qəzası qadınlara vacib deyil.

# Təyəmmüm

Namaz üçün dəstəmazı və ya qüslu su ilə yerinə yetirmək imkanı olmasa, suyun əvəzinə torpaqla dəstəmaz və ya qüsl alınmalıdır. Bu əmələ təyəmmüm deyilir.

1. Təyəmmümün vacib olan yerləri

a) Əgər su tapılmazsa, bu zaman insan ümidini itirənə qədər suyu axtarmalıdır. Tapmadığı təqdirdə, dəstəmaz və ya qüsl əvəzinə təyəmmüm etməlidir.


Şəkil: 13


Şəkil: 14


Şəkil: 15

b) Əgər su insana zərərli olarsa, onda təyəmmüm etməlidir. Məsələn, su ilə cənabət qüslunu aldığı təqdirdə xəstələnəcəyini bilərsə, bu zaman təyəmmüm etməlidir.

2. Təyəmmümün alınma qaydası

Təyəmmümü dəstəmaz və ya qüsl olaraq niyyət etdikdən sonra əlin içi ilə təyəmmüm düzgün hesab olunan şeylərə -torpaq, daş, qum, ya da kəsək kimi- bir dəfə vurub (Şəkil: 13), əlin içi ilə alnın tük bitən yerindən başlayaraq burnun yuxarı hissəsinə qədər bütün alnına çəkməlidir. (Şəkil: 14) Sonra sol əlin içi ilə sağ əlin üstünə biləkdən bir az yuxarıdan olmaq şərti ilə barmaqların ucuna qədər çəkməlidir. (Şəkil: 15) Sonra isə

sağ əli deyildiyi qaydada sol əlin üzərinə çəksin. Daha sonra bir dəfə də əlini torpağa vurub yenə deyildiyi qaydada sağ, sonra sol əlinin üzərinə çəkməlidir.

3. Təyəmmümün müddəti

Alınan təyəmmüm üzür aradan getdikdə, məsələn, su tapıldıqdan sonra batil hesab olunur və onunla namaz qılmaq olmaz. Dəstəmazı batil edən şeylər dəstəmaz əvəzinə alınan təyəmmümü də batil edir.

Qeydlər:

a) Cənabət qüslu və dəstəmaz əvəzinə alınan təyəmmüm eyni şəkildə alınır, fərq isə təkcə niyyətə görədir.

b) Təyəmmüm alarkən üzük, saat, bilərzik və s. kimi maneələr olmamalıdır.

Əlinizdə olan bu namaz kitabçası namazı təzə öyrənmək istəyənlər üçün nəzərdə tutulub. Buna görə də kitabçada göstərilən şəriət hökmləri qısa şəkildə qeyd olunmuşdur. Kitabçada qeyd olunan hər bir şəriət hökmünün təfərrüatları ilə tanış olmaq üçün bu sahədə geniş yazılmış risalə kimi, dini ehkamlar kitablarına müraciət etmək lazımdır.